

**Akılbek Şayaxmet**
**(Qazaxıstan)**

Məşhur qazax yazıçısı, jurnalist-publisist, şair, dramaturq, tərcüməçi.

17 iyun 1951-ci ildə Kostanay vilayətinin Jitikarinski rayonunun Zabelovka kəndində anadan olub. Qazaxıstan Dövlət Universitetinin jurnalistika fakültəsini və M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunu bitirib. 1982-ci ildən Kostanay Dövlət Tele-Radio şirkətinin redaktordur. Qazaxıstan Yazıçılar İttifaqı idarə heyətinin üzvüdür.

Axmet Baytursınov adına Kostanay Dövlət Universitetində Qazax və rus filologiyası instutunun direktoru və Jurnalistika fakültəsinin dekanı vəzifələrində çalışıb. Hal-hazırda Kostanay Dövlət Universitetində Media-Mərkəzin direktorudur.

İlk kitabı 1977-ci ildə işıq üzü görüb. 25 kitab müəllifidir. “Piramida”, “Mənim orbitim”, “Yer kürəsi bir yüyrükdür” kimi məşhur kitabları ona şöhrət qazandırıb.

Akılbek Şayaxmet eyni zamanda Azərbaycan ədəbiyyatının yaxın dostu və ədəbiyyatımızın Qazaxıstanda fəal təbliğatçılarından biridir. Görkəmli şairi anadan olmasının 65 illiyi münasibətilə təbrik edir, ədəbi əlaqələrimizin möhkəmlənməsi yönündə apardığı işlərdə ona uğurlar diləyirik.

## BACARA BİLSƏN

Mənim də qəlbimdə qəm var, ay dostum,
Vaxt olur, könlümdən ağlamaq keçir.
Donur təbəssümüm, itir sevincim,
Bağrımın başını tənhalıq didir.

Param-parça olur ürəyim, desən,
Ona dərdimənd ol, bacara bilsən.

Bir səbəb aramam qanlı tutmağa,
Niyə gileylənim taledən, baxtdan?!
Ümidim ağlıma deyir, hey deyir:
Özünə inamı itirmə, toxta.

Vücudum süst düşür, doğranır, desən,
Ona dərdimənd ol, bacara bilsən.

Mənimki gətirmir, ha düşün-daşın,
Qəmli xatirələr məni hey izlər.
Məni şər qüvvələr alır hədəfə,
Sanki oxa dönür zəhərli sözlər.

Çırpınır tələdə ürəyim, desən,
Ona dərdimənd ol, bacara bilsən.

## DOSTA MƏKTUB

Batdıq dəftərxana qovluqlarında,
Vəzifə axtardıq, rütbə düşündük.
Unutduq uşaqlıq çağlarımızı,
Həm parta yoldaşı, həm qonşu idik.

Qaydası ayrıydı köhnə dostluğun,
Birdi çörəyimiz, arzularımız.
Günəşi birlikdə qarşılayardıq,
Bir göyün altında cəmdik hamımız.

Əzəldənmi belə düşünürdün sən,
Yoxsa sənidəmi sındırdı həyat?
Arzular dalınca qoşduğumuzdan
Neçə qış, neçə yay ötübdür, heyhat.

Soraq gözləyirəm səndən boşuna,
Yox, məktubun gəlməz heç ünvanıma.
Yenəmi o qızı düşünürsən sən, -
Yenəmi ürəyin heç tapmır aram?

Çətin heç nə yoxdur əsla ömürdə,
Xatırla, neçə yol odda bişmisən.
Baxıb görərsən ki, bu tələyə sən
Gəlib bilə-bilə özün düşmüsən.

## YAZAĞZI QARI

Göylərdən şəfəqlər ələnir kimi,
Ələnir yerlərə yazağzı qarı.
Öz bəyaz donunu geyinir torpaq,
Göz oxşayır çölün dümağ paltarı.

Qoy yağsın, qar örtsün gen tarlaları,
Ürəyi açılsın əkinçilərin.
Sabah bir zəmidir bol-bərəkətli, -
Xalqın çörəyidir əkin yerləri.

Üfüqdən-üfüqə bəyazlıq sarıb,
Düzlər dönüb olub sanki qar gölü.
Geniş sinəsinə çəkib ayazı,
Sərlib yerlərə Kostanay çölü.

## ƏGƏR SÖYLƏSƏLƏR...

Əgər, söyləsələr “dəyişməmisən”,
Sevin ki, haqqında belə deyirlər.
Haqsız olan zaman üzr istəmisən,
Alnıaçıq olur haqqı bilənlər.

Görməzdən gəlməyib, aldatmamısan,
Qoru ləyaqətlə bu vüqarı sən.
Demək, əməlində doğru olmusan,
Sinəndə təmiz bir qəlb bəsləmisən.

Əgər, söyləsələr “çox dəyişmisən”,
Sevin ki, haqqında belə deyirlər.
Demək, daha müdrik, daha təmizsən,
Demək, dost, qardaşdır bunu deyən də.

Dağıdıb qarşına çıxan sədləri,
Əzabla, sevgiylə önə çıxırsan.
Ömrünü bəzəyib təzadlarıyla,
Həyat səni yıxır, yenə qalxırsan.

## KÖRPƏ

Elə ki, körpəni ana döşündən
Ayırıb kənara atırlar qəfil,
İçiboş əmzikdən elə yapışır,
Qışqırıb, demir də: “Ana, aman ver!”

Fərqi yox - o körpə oğlan olsun, qız,
Unudur ana kim, ana südü nə...
Dişinə çəkdikcə o boş əmziyi,
Allahın lütfütək qəbul eləyir.

Belədir, hər şeyə can atan insan,
Aldanıb yapışır dünya malına.
Əmziyə öyrəşən körpələr kimi
Atıb həqiqəti, uyur yalana.

**Tərcümə edən:**
**İbrahim İlyaslı**